UOT-811.11-112
Səhifə:70-74
https://doi.org/10.59849/2663-8967.2026.2.70

Aynur Muradova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Aynur_Muradova@unec.edu.az

İNGİLİS DİLİ TARİXİNDƏ "FUTURE" ZAMAN FORMASININ SEMANTİKASI

XÜLASƏ

Təqdim edilən bu məqalə qədim ingilis dövründə gələcək zamanı ifadə edən əsas dil vasitələrini araşdırır. Zaman anlayışının tərkib hissəsi olan gələcək zaman kateqoriyası bu sistem daxilində indiki və keçmiş zamanlarla yanaşı özünəməxsus zaman anlayışını əks etdirir. Məqalədə müxtəlif mətnlərdə gələcək zamanın ifadə üsulları, habelə onun spesifik xüsusiyyətləri təsvir edilmişdir.

Açar sözlər: *gələcək; proqnozlaşdırma; arzu; modal məna; gələcəyin işarəsi.*

Giriş: İngilis dili tarixində gələcək zamanı ifadə edən konstruksiyaların qrammatikləşməsi problemi təkcə anqlo-sakson dünyasının həyatı haqqında məlumat mənbəyi kimi deyil, həm də yazı abidəsi kimi tədqiqatlar üçün böyük maraq doğurur və ingilisdilli bədii ədəbiyyatın inkişafında müəyyən mərhələni əks etdirir.

Məqaləmizi yazmaqda məqsəd gələcək zamanın qrammatikləşdirilməsinin əsas vasitələrini müəyyənləşdirmək və qədim ingilis dövründə futurallıq kateqoriyasına xas olan mənaları aşkar etməkdir. Gələcək konstruksiyaların paradiqmalaşma dərəcəsini qiymətləndirərkən gələcək zaman kateqoriyasının modallığa olan yaxınlığını qeyd etmək lazımdır. Məhz modal məsdər birləşmələri (modal infinitive combinations) və gələcəyin modallığa yaxınlığı əsasında qədim ingilis dilində gələcəyin analitik formalarının inkişafı yaranmışdır. Modal birləşmələrin qrammatikləşməsi onları sərbəst strukturdan (komponentlər arasında sintaktik əlaqə olmaqla) cümlədə vahid qrammatik forma funksiyasını yerinə yetirən qrammatik sözlə (function word) semantik sözün (action word) kombinasiyası kimi təqdim etməyə imkan verir.

Dilçilik sahəsində gələcək zaman kateqoriyası, ümumiyyətlə, zaman kateqoriyası sistemində ən mübahisəli məsələ kimi nəzərdən keçirilir ki, bu da gələcək zamanın modallığın daxili əlaqəsi ilə şərtlənir. [1, s.19]. Gələcək zaman və modallıq kateqoriyasının yaxınlığı heç bir şübhə doğurmur. Əgər belə yaxınlıq olmasaydı, modal məsdər birləşmələri əsasında gələcəyin analitik formalarının inkişafı qeyri-mümkün olardı. Günümüzdə müasir dillərdə gələcək zamanla ifadə olunan fikirlər qədim german dillərində modal ifadə vasitələri ilə ötürülürdü. Bu fikirlər niyyət və ya planlaşdırılan hərəkət, proqnozlar və ya öngörmə mənalarıdır. Gələcəklə bağlı ifadələr ingilis dilində gələcək zaman formalarından çox indiki zaman formalarından istifadə etməklə ifadə edilir, yəni razılaşma, tənzimləmə və ya planlar səbəbindən baş verəcək hərəkəti ifadə etmək üçün indiki zaman formalarından istifadə edilir. Məsələn:

The train arrives at 8. We are leaving tomorrow. (Qatar saat 8-də çatır. Sabah yola düşürük.)

Zaman və şərt budaq cümlələrində *when* və *if* bağlayıcıları olan tabeli mürəkkəb cümlələrdə, gələcəklə bağlı ifadələrin doğruluğu bağlayıcılarla müəyyən edilir. Proqnozların əsasında danışanın məhz inandığı və ümid etdiyini güman etməsidir. Biz inanırıq ki, gələcək zaman formalarının invariant (dəyişməz) məzmunu nitq anını izləmək əvəzinə xarici və ya daxili amillərlə həvəslən-

dirilən bir öngörmə kimi, danışanın istəyi, öhdəliyi, habelə qarşıdan gələn hərəkətin şərtləri və ya əlamətləri ilə tanınmalıdır.

Müasir german dillərindəki modal fellərin əksəriyyəti qədim dillərdə məhdud leksiko-qrammatik qrup təşkil edən *preterite-present* feillərə qayıdır. Qədim İngilis dilində on iki *preterite-present* fel var idi. Bu qrup fellərdə indiki zaman güclü fellərin *preterite* (keçmiş zaman) formasına, *preterite* isə ikinci dərəcəli formalaşmaya malik idi. Modal, yəni qiymətləndirici mənaları olan dörd feil: *cunnan* - bacarmaq, *culan* - səbəb olmaq, *maʒan* - bacarmaq, *mot/moste* - can/could (məsdəri yox idi) mövcud idi. Sonralar willan – istəmək, arzu etmək feili preterite-present fellər qrupuna qoşuldu. Qeyri-modal semantikalı altı feil Erkən Müasir İngilis Dili dövründə istifadədən çıxdı. *Dar, durren* feilləri standart fellərə qoşuldu. "Malik olmaq" feili qeyri-modal semantikanın iki standart felini əmələ gətirdi və onun ought forması (ahte) "olmalıdır", "vacibdir" mənalarını aldı və kontekstlərdə bu vahid formada işlənməyə başladı.

Digər mövcud olan modal fellər müxtəlif dərəcələrdə olsa da, qrammatikləşdirildi. Qrammatikləşmə prosesində onlar öz ilkin materialını, konkret mənalarını itirdilər. *Can* modal feli "mən bilirəm", *shall* "mənim vəzifə borcumdur, etməliyəm", *may* "bacarıram, qadirəm" mənalarını daşıyırdı. Bu modal fellər daha geniş və ümumi modal mənaları daha da inkişaf etdirdilər. 'Can' və 'will' müstəqil tam dəyərli fellər kimi 1600-cü ildən istifadə edilə bildi. Ümumiyyətlə, 1570-ci ildən sonra ingilis dilində yalnız müəyyən qrammatik qüvvəyə malik olan preterite-present felləri qalmışdır. Modal fellərin tarixi preterite formaları indiki zaman formalarından qat-qat sabitdir. İngilis dilinin müxtəlif tarixi dövrlərinə ayrılaraq müstəqil fellərə çevrilən indiki zamanın müvafiq formaları, sonradan daha fərqli xüsusi modal mənaları inkişaf etdirdi.

Yalnız zamanların dəyişməsi ilə onları eyni fellərin indiki və keçmiş zaman formaları hesab etmək olar. Bütün digər hallarda, onları müstəqil fellər hesab edilməlidir. Modal fellərin formalarının əvəz oluna bilməməsi, deleksikləşmə və ixtisaslaşmanın müəyyən nitq situasiyasında müəyyən modal məna ifadə etməsi, feilin fleksiyalı paradiqması ilə tarixi əlaqəni itirmiş modal hissəciklər kimi nəzərdən keçirməyə imkan verir. Modal fellərin belə inkişafı ingilis dilinin təkamülünün unikal xüsusiyyətini təşkil edir.

Sculan və *willan* fellərinin qrammatikləşməsi yazıdan əvvəlki dövrdən başlayır. *Sculan* modal felinin bir sıra mənalarından biri də "-malı, -məli" idi. Məsələn, həmin feilin göstərilən cümlədəki mənası "*cyning sceal rice healdan*" - "kral ölkəni idarə etməlidir" kimi və daha mücərrəd mənalarda, məsələn, zərurət mənasında: "*and ealle þa hwile he sceale sezlian be lande*" - "və bütün bu müddət ərzində o, sahil boyu üzməlidir", eləcə də modallıq dərəcəsinə görə gələcəyə mümkün qədər yaxın öngörmə, proqnozlaşdırma mənasında: "*Feallan sculon hæ ðne æt hilde*" – "Döyüşdə ölmək murdarların qismətdir" işlənə bilər [2, s.28]. Qədim dövr dilinin təhlili yazılı mənbələrin sayının az olması səbəbindən müəyyən çətinliklər yaratdığından, biz faktiki material əldə etmək üçün mövcud olan bütün ədəbi mənbələri araşdırdıqdan sonra davamlı seçmə metodundan istifadə etməklə köhnə ingilis lüğətlərindən istifadə etməyə qərar verdik.

Bu dövrdə ingilis dilinin şifahi nitq sisteminin inkişafının ümumi tendensiyalarına uyğun olaraq yaranan sintetik formaların yeni analitik vasitələrlə əvəzlənməsi prosesi başlandı. *Wolde*-nin məsdər ilə birləşməsi *willan* modal feilinin məsdərlə birləşmiş formasından yaranmışdır. Qrammatik kateqoriyaları ifadə edən analitik vasitələrin inkişafına məruz qalan willan modal feli digər feillərin məsdəri ilə birləşərək çox vaxt mənasını zəiflətmiş və tədricən yaranan analitik formaların köməkçi feilinə çevrilmişdir. O, gələcəyi ifadə etmək və nisbi gələcək hərəkəti çatdırmaq üçün geniş istifadə olunurdu. Lakin nisbi gələcəyin mənası əsasən asılı şəraitdə açıldığına görə *willan* feilinin digər feillərlə birləşməsi bu şərtlərin təsiri altında baş vermişdir. *Willan* feli məsdər ilə birləşərək, tabeli mürəkkəb budaq cümləsi daxilində *subjunctive mood* (felin arzu şəkli) və zamanların uzlaşması qanunauyğunluqlarına tabe olaraq keçmiş zaman *subjunctive mood* formasını almışdır. Nəticədə, nisbi gələcək hərəkəti ifadə etmək üçün məsdər ilə *wolde* birləşməsi yarandı və bu forma dildə daha da möhkəmləndi:

Mæcedonium cu› flæt Eunem and Pison ...wolden winnan on hie ... [Orosius](Makedoniyalılar öyrəndilər ki, İumen və Piso onlara qarşı müharibəyə başlayacaq...).

Lakin "arzu, istək" mənasına gələn modal feillərdən gələcək zamanı yaradan köməkçi feilləri kimi istifadə edərkən bəzən, kontekstin modallıq məzmunu bu feillərin ilkin mənası ilə üst-üstə düşə bilir və bu halda istək mənası onu etməyə hazır olmaq mənasına çevrilir.

"*Willan*" feli, arzu və niyyət mənasına əlavə olaraq: "*Ond to ælcum biscepstöle on minum rice wille ane onsendan*" - "və səltənətimdəki hər yepiskopluğa bir (kitab) göndərəcəyəm" (İncil-Gospel) qədim ingilis dilində gələcək zamanda baş verəcək hər hansı bir hərəkəti və ya sözü yerinə yetirməyə hazır olmaq kimi də ifadə etmişdir.

"*Hie willaş ëow to gafole gäras sellan*" - "Onlar sizə xərac olaraq ancaq nizə verəcəklər" (İncil-Gospel).

Kontekstin modal məzmununun willan feilinin leksik mənası ilə üst-üstə düşmədiyi və ya tamamilə zidd olduğu hallarda, bu, artıq qədim ingilis dili dövründən başlayan, wolde-nin infinitivlə birləşərək willan felinin desemantizasiya (mənanın tam vəya qismən itməsi) prosesinin sübutu olaraq təzahür edir:

βa com se dæg azimorum on βam hi woldon hyra eastron gewyrcan ... (Gospel)

Pasxa quzusunun kəsilməli (-malı, -məli – felin əmr şəkli) olduğu gün gəldi...

βa stod se manfulla feorran and nolde (= ne wolde) furðun his eagan ahebban up (Gospel)

Vergi yığan (şər daşıyıcısı) isə uzaqda dayanıb (feilin xəbər şəkli) gözlərini ona qaldırmağa cəsarət etmədi.

Lakin məcburiyyət (-malı, -məli) və arzu mənaları təkcə gələcək zamana deyil, həm də *subjunctive mood* - tabelik halına yaxındır. Belə ki, bir çox hallarda dildə mövcud olan qeyri-real şəraitin keçmiş zaman *subjunctie mood*-un şərti budaq cümlələri ilə ifadə edildiyini nəzərə alaraq dilin ifadə vasitələrinin analitik inkişafa meylli olması nəticəsində, yuxarıda qeyd olunan birləşmənin *willan* modal feilinin keçmiş zaman forması mənaca ona yaxın olan şərti qeyri-reallıq funksiyasını (ehtimalsızlıq) öz üzərinə götürdü [3, s.173]:

….gif se hiredes ealdor wiste hwænne se βeof cuman wolde, witodlice he wacude and ne geβafude βæt man his hus underdulfe (Gospel)

....ev sahibi oğrunun nə vaxt gələcəyini bilsəydi, oyaq olardı və evinin dağıdılmasına (zərər vurulmasına) icazə verməzdi.

Beləliklə, qədim ingilis dilində "wolde + məsdər" birləşməsi həm gələcək zaman mənasını, həm də şərti qeyri-reallıq (ehtimal) mənasını ifadə edə bilirdi. Əlavə etmək lazımdır ki, "*willan*" modal feilinin "wolde" formasının artıq o dövrdə dildə tez-tez qismən və ya tamamilə desemantizasiya (mənanın tam vəya qismən itməsi) edilməsi, sonradan leksik mənanın tamamilə itirilməsinə və "wolde" (would) formasının müasir ingilis dilində köməkçi feil kateqoriyasına keçməsinə səbəb oldu.

"Shall","will" feillərinin təhlili, hərəkətin könüllü və ya qeyri-ixtiyari xarakterindən asılı olaraq, bu feillərin gələcək mənada işlədilməsi tendensiyasını müəyyən etməyə imkan verir. "Will" ilə olan birləşmələr icrası danışanın iradəsindən asılı olan hərəkətləri bildirir. "Shall" ilə olan birləşmələr, danışanın təsir edə bilməyəcəyi obyektiv amillər əsasında gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan hərəkətləri ifadə edir. Bu, hər hansı bir vəziyyətlə, digər insanların taleyi və ya iradəsi ilə əlaqədar ola bilər. Misal üçün,

To-day I wile fro Denmark fle.

Myn harm I wol confesse.

Syn (since) I shal bigynne the game…Here I wile on boke swere, at nevre more ne shal I bere ayen e, loverd, sheld nespere. (Havelock the Dane)

Bu ifadə tərzi Şekspirin dilində kök salmış və bu günə qədər gəlib çatmışdır, baxmayaraq ki, bu yalnız Briyaniya standartlı ingilis dilində keçərlidir.

XIV-XVII əsrlərdə "shall" ilə olan birləşmələr gələcək zaman və *subjunctie mood*-un əsas qrammatik modelinə çevrilsə də, sonralar (16-17-ci əsrlərdən başlayaraq) həmin konstruksiyalar "*will*" ilə əvəz edilmişdir. Bu proseslərin oxşar işıqlandırılmasına T.A. Rastorguyevanın əsərlərində rast gəlinir [2, s.131]. K.Brunnerə görə orta əsr ingiliscəsində *mot* və *mun* gələcək zaman mənasında da işlənmişdir [5, s.88] və Şekspirin dilində, E. Abbottun hesab etdiyi kimi, "*must*" sadə gələcək zaman mənasında istifadə edilmişdir [4, s.222]. Bu ifadə tərzi bir sıra İngiltərə

ləhcələrində *vust*-un variantı kimi qorunub saxlanılır. Yorkşir dialektlərində birinci feil (*shall*) insanın iradəsi ilə bağlı zərurəti, ikincisi isə (*will*) məntiqi və ya təbii zərurəti ifadə edir.

İcrası natiqin iradəsindən asılı olan hərəkətləri "*will*" ilə olan birləşmələr, natiqin bilmədiyi obyektiv faktlar əsasında gələcəkdə həyata keçirilməsi proqnozlaşdırılan hərəkətləri isə "*shall*" ilə olan birləşmələr bildirir (şəraiti, başqa insanların iradəsini, taleyini və s.). Feillərin bu mənada istifadəsi Şekspirin dilində təsbit edildi və yalnız Britaniya standart ingilis dilində olmasına baxmayaraq, bu günə qədər qorunub saxlanılır. Məlumdur ki, 18-ci əsrdə normativ qrammatika cərəyanını əsas tutan dilçilər "*will*" ilə ifadə edilən formadansa, birinci şəxsdə ifadə olunan "*shall*" formasının daha düzgün olduğunu elan etdilər . Bununla belə, həm "*shall*"-in birinci şəxslə istifadə qaydası, həm də hərəkətin könüllü və qeyri-iradi xarakteri arasındakı fərqə əsaslanan qayda müasir ingilis dilində nəzərə alınmır. Gələcəyi ifadə edən vasitələrin standartlaşdırılması tendensiyası shall-in və onun ixtisar olunmuş variantının ('ll - gələcəyin göstəricisi kimi) istifadə tezliyini durmadan *will*-in xeyrinə artırır.

Nəticə: Yuxarıda göstərilənlərdən belə nəticəyə gələ bilərik ki, semantikası gələcək modal mənaya yaxın olan iradə (*will*) və öhdəlik (*shall*) feilləri ilə olan birləşmələrin istifadəsi və gələcək zamanın analitik formalarının inkişafındakı ümumi tendensiyalar bütün german dilləri üçün xarakterikdir. İngilis dili modal-predikativ hissəciklərə çevrilmiş bir qrup modal fellərin ifrat qrammatikləşməsi və gələcək zamanın işarəsi kimi "*will*" feli bütün variantlarında istifadə etmək meyli ilə xarakterizə olunur.

Ədəbiyyat siyahısı

1. Tahirov İ.M. İngilis dili morfoloji temporallıq sahəsinin strukturunda gələcək zamanın statusuna dair, "Azərbaycan dilçiliyinin aktual problemləri" mövzusunda REK-nın materialları, Bakı, 28 oktyabr 2019.
2. Расторгуева Т.А. Варьирование и исторические изменения морфологической системы языка. М., 1980. Стр.131.
3. Сухомлина Т.А. Категория футуральности и средства ее языковой манифестации: дис.канд. филол. наук. Самара, 2007. 173 с.
4. Abbott A. Shakespearian Grammar. London, 1979. P. 222.
5. Brunner K. An Outline of Middle English Grammar. Cambridge, 1963. P. 88.

Айнур Мурадова

Семантика формы будущего времени в истории английского языка

Аннотация

В представленной статье рассматриваются основные лингвистические средства, использовавшиеся для выражения будущего времени в древнеанглийском языке . Категория будущего времени, входящая в состав понятия времени, отражает уникальное понятие времени наряду с настоящим и прошедшим временем внутри этой системы. В статье описаны способы выражения будущего времени в различных текстах, а также его специфические особенности.

Ключевые слова: *будущее; прогноз; желание; модальное значение; знак будущего*

Aynur Muradova

The semantics of the "Future" tense form in the history of the english language

Abstract

This presented article examines the main linguistic devices used to express future tense in the Old English period. The category of future time, which is a part of the concept of time, reflects a unique concept of time along with the present and past tenses within this system. The article describes the ways of expressing the future tense in various texts, as well as its specific features.

Keywords: *prediction, desire, modal meaning, volition, a marker of the future.*

Çapa tövsiyə edən: ***Azərbaycan Memarlıq və İnşaat Universiteti***

Rəyçilər: ***fil.e.d.,dos.A.Məşədiyeva***
fil.e.d.,dos.Q.Mahmudova